**Gülsəba HƏSƏNOVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**glsyba@bk.ru**

# FÜZULİ ŞƏXSİYYƏTİ VƏ İRSİ NİZAMİ MUZEYİ EKSPOZİSİYASINDA

Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərinin əyani vasitələrlə qavranılmasında təsviri sənət əsərlərinin əhəmiyyəti böyükdür. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini bəzəyən təsviri sənət əsərləri muzey əşyasını əyaniləşdirir, tamaşaçı üçün anlaşıqlı edir, emosional təsir gücünü artırır.

Muzey özünün estetik qiymətini ekspozisiyada verilən eksponatlar vasitəsilə tapır. Muzeyin ekspozisiyasında orta əsrlər Azərbaycan ədəbiyyatının dahisi Məhəmməd Füzuli və onun yaradıcılığı haqqında elmi və təsviri məlumat verən, tamaşaçılarda şairin Azərbaycan ədəbiyyatında tutduğu mövqe haqqında hərtərəfli təsəvvür yaradan vahid kompleks yaradılmışdır. Bu kompleks Füzulinin tarixi-bioqrafiyası və yaradıcılığını nümayiş etdirən iki xətt üzrə verilmişdir. Bu xətlər bir-birindən təkcə səciyyə, janr nöqteyi-nəzərdən deyil, həm də ekspozisiya eksponatlarının mövzu müxtəlifliyi ilə seçilir.

Rəssamlarımız dahi şairin şəxsiyyətinə, onun irsinə dərin məhəbbət duyaraq incəsənətin müxtəlif sahələrində əsərlər yaratmışlar. Bunlardan S.Bəhlulzadə, M.Abdullayev, M.Rəhmanzadə, O.Sadıqzadə, E.Rzaquliyev, Ə.Minayi, R.Xələfov, F.Əbdürrəhmanov, E.Şamilov, Ö.Eldarov, T.Məmmədov, A.Sədri kimi rəssam və tişə ustalarını misal göstərmək olar. Bu sənətkarların Nizami muzeyinin fondunda mühafizə olunan, ekspozisiyasını zənginləşdirən saysız əsərləri var.

Tarixi məlumatlar göstərir ki, orta əsrlərdə Azərbaycanda portret çəkməyə, heykəl yaratmağa İslam dininin mənfi münasibətinə görə Məhəmməd Füzulinin real cizgilərini əks etdirən portret əldə olunmamışdır. İstər sovet dövrü, istərsə də müasir Azərbaycan incəsənətini özündə əks etdirən kitablarda və dövri mətbuat materiallarında Füzulinin ilk surətinin yaradılması haqqında müxtəlif fikirlər səslənmişdir. Bunlardan bir neçəsinə nəzər salaq.

Cəmilə Novruzovanın "Fuad Əbdürrəhmanov" ("Фуад Абдуррахманов") kitabındakı qeydlərinə görə, heykəltəraş Fuad Əbdürrəhmanov ilk dəfə tarixi ikonoqrafik qaynaq olmadan Məhəmməd Füzulinin son dərəcə inandırıcı, xarakterik cizgiləri ilə yadda qalan surətini yaratmağa nail olmuşdur. Obrazı yaratmazdan öncə şairin poetik yaradıcılığı ilə tanış olmuş, onu əsaslı öyrənmişdir. Obrazda dərin fəlsəfi məna, fikir və hiss zənginliyi aydın duyulur. Fiqurun təsvirinə gəldikdə isə, çiynindən aşağıya doğru uzanan əbada, ayaq üstündə, bir əlini sinəsinə sıxmış, digər əlində kitab, daxili düşüncələrə qapılmış ilahi eşq tərənnümçüsü kimi təqdim edilir. Heykəlin plastik həllində müəllif lakonikliyə və iri plastik formalara üstünlük verməklə monumentallıq xüsusiyyətlərini daha da artıra bilmişdir.

Nizami muzeyinin ekspozisiyasında ən dəyərli eksponatlardan biri də Məhəmməd Füzuli yaradıcılığının şah əsəri hesab olunan "Leyli və Məcnun" mövzusunda olan piramidadır. Bu əsərin müəllifi 1957-ci ildən başlayaraq bir sıra respublika və beynəlxalq sərgilərin və müsabiqələrin iştirakçısı olmuş Rasim Xələfovdur. Dekorativ-tətbiqi sənət əsərlərinin kamil bilicisi olan rəssam bir neçə monumental işin də müəllifidir.

"Leyli və Məcnun" poemasına həsr olunmuş bu əsər rəssam prizmasından işlənilmiş və tamaşaçıda Füzuli yaradıcılığı haqqında təsəvvürün formalaşması üçün bir vasitədir. Yüksək hissiyyatla sərbəst formalarda və ahəngdar həcmlərdə işlənmiş

bu piramidaşəkilli sənət əsərində ölməz sənətkarın mənəvi zənginliyi, müdrikliyi, poeziyanın dərinliyi hiss olunur.

Rasim Xələfov fiqurların təsvirində materialın təbiətindən gələn dekorativliyi və çoxrəngliliyi dərindən duymuş, maraqlı sənət əsəri yarada bilmişdir. Rəngli və işıqlı fiqurlarında farforun təbiətindən, onun faktura imkanlarından doğan dekorativliyini professionallıqla hiss edə bilmişdir. Fiqurlar təkcə sənətkarın əsərə incə plastika və rəng vermək bacarığı ilə diqqəti cəlb etmir, həm də hər şeydən əvvəl obrazların səciyyəvi xüsusiyyətlərinin ifadə edilməsi baxımından məntiqi məna kəsb edir. Burada obrazların tipik jest və hərəkətləri məharətlə tapılmışdır. Heykəltəraş məhz bu çinidən olan fiqurlarla iki əsər arasında bir qədər fərqli məqamları işıqlandıra bilmişdir.

Azərbaycan rəssamları üçün Füzuli poeziya zirvəsi, nakam məhəbbətə ucaldılan əbədi heykəlin müəllifi və böyük söz xiridarı idi. O böyük söz ustadının şeirindən ilham alaraq əsərlər yaradan sənətkarlarımız saya sığmayacaq qədərdir. Füzuli poeziyasının Şərqin böyük fəlsəfi fikir və düşüncə qaynağı kimi incəsənətdə təsirini əks etdirən əsərləri zaman-zaman yaranaraq söz sənəti ilə rəssamlığın və heykəltəraşlığın vəhdətini ifadə etmişdir.

Mübaliğəsiz deyə bilərik ki, Səttar Bəhlulzadə, Oqtay Sadıqzadə, Fuad Əbdürrəhmanov, Ömər Eldarov, Tokay Məmmədov adları sırasında Elcan Şamilov da var. Sənətkarların firçasından və tişəsindən ömür almış əsərlər zirvələrdədir. Onları bir-biri ilə müqayisə etdikdə xeyli oxşarlıq meydana çıxır. Belə ki, bu sənətkarlar Füzuli lirizmini bütün gözəlliyi, fəlsəfi dərinliyi ilə duya bilir; Füzuli poeziyasına həsr etdikləri portret ictimai-bəşəri mahiyyət daşıyır; hər birində mövzunun konkret poetik çərçivəsindən kənara çıxaraq, eyni zamanda rəssamın öz hiss və duyğularının tərcümanına çevrilir.

Azərbaycan lirik şeirinin böyük ustadı Məhəmməd Füzulinin heykəli (*Məhəmməd Füzuli: heykəl, materialı kəc, ölç.h. 2 m.*

*İnv.1828. Daxil olma: 1958)* Elcan Şamilovun "Düşünən heykəllər" silsiləsinin zirvəsidir.

Heykəltəraşın yaratdığı möhtəşəm abidə Məhəmməd Füzulinin dünyəvi kədərini və dərin poetik düşüncəsini dolğun şəkildə əks etdirir. Füzulinin oturaq vəziyyətdə canlandırdığı heykəlində o, dahi şairin mənəvi aləminə dərindən nüfuz etmişdir. Həm Fuad Əbdürrəhmanov, həm də Elcan Şamilovun Məhəmməd Füzuli heykəllərində Məcnun obrazının xarakteri özünü göstərir.

Muzey ekspozisiyasında nümayiş olunan dəyərli eksponatlardan Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsəri motivində "Məcnun ceyranlar ilə birlikdə" əsəri və muzeyə hədiyyə olunan Məhəmməd Füzuli büstüdür.

Heykəltəraş Axund Sədri tərəfindən yaradılmış heykəl 1941-ci ildə muzeyə daxil olub. Materialı kəcdən olan heykəl dekorativ heykəllər qrupuna aiddir. Mənbələrdən bəlli olduğu kimi, "Leyli və Məcnun" əsərinin əsas süjet xəttini qədim ərəb əfsanələrinin qəhrəmanı – Qeys ibn Muradın (Məcnun) faciəvi məhəbbəti təşkil edir. Məcnun haqqında danışılan fikirlər isə onun Leyliyə olan faciəvi məhəbbətindən yox, daxili poetik qüvvəsindən irəli gəldiyinə əsas verir.

Fikrimizi ümumiləşdirərək qeyd edək ki, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fond və ekspozisiyasını təşkil edən Məhəmməd Füzuli və onun yaradıcılığına həsr olunmuş heykəltəraşlıq nümunələri muzey ekspozisiyasını zənginləşdirən, bədii-estetik dəyərlərin daşıyıcısı olan əsərlərdir.

**Gulsaba Hasanova**

## PERSONALITY AND LEGACY OF FUZULI IN EXPOSITION OF NIZAMI MUSEUM

***Summary***

The sculptural patterns dedicated to Muhammad Fuzuli and his activity, which form the basis of the exposition and fund of the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi, make the museum viewers think deeply and it reflects the deep respect of the master sculptor who created it to the great personalities of this land, and is an indicator of his deep faith in the future of his country. Fuzuli's portrait is a sculpture-thinker in terms of expressing thoughts and goals, and the images of Leyli and Majnun are petrified symbols of the poet's lyric.